# Riyaziyyat

1. $\dfrac{2a^2-2b^2}{5a-5b}=2$ olarsa, $a+b$ cəmini tapın.
A) 4 B) 3 C) 5 D) 2 E) 1

2. $|a-2b|+(b-3)^2=0$ olarsa, $ab$ hasilini tapın.
A) 12 B) 9 C) 27 D) 8 E) 18

3. $-4{,}2$ ədədinin tam hissəsi ilə $-3{,}6$ ədədinin kəsr hissəsinin hasilini tapın.
A) -2 B) -3,2 C)-2,8
D) -4 E) -4,4

4. ΔABC-də BK tənbölən, AB=10, CB=6 , AK=5 olarsa, CK-nı tapın.
A) 4 B) 6 C) 3
D) 5 E) 2

5. Eyler-Venn diaqramına əsasən $B$ çoxluğunun alt çoxluqlarının sayı $A$ çoxluğunun elementləri sayından nə qədər çoxdur?




A) 11 B) 12 C) 10 D) 9 E) 8

6. $a, b$ natural ədədlərdir, $a+b=14$ olarsa, $\frac{b+7}{a+1}$ kəsrinin ən böyük qiymətini tapın.
A) 12 B) 16 C) 18
D) 14 E) 10

7. Bərabəryanlı üçbucağın xarici bucaqlarından biri $55^0$ –dir.Onun təpə bucağını tapın.
A) $130^0$ B) $125^0$ C) $135^0$
D) $120^0$ E) $110^0$

8. $a-\dfrac{2}{a}=3$ olarsa, $a^2+\dfrac{4}{a^2}+2$ ifadəsinin qiymətini tapın.
A) 8 B) 10 C) 21
D) 15 E) 17

9. $\overline{ab}=\overline{ba}+45$ şərtini ödəyən neçə $\overline{ab}$ ikirəqəmli ədədi var?
A) 1 B) 2 C) 3
D) 4 E) 5

10. Şəkildə AB=3 olarsa, AC-ni tapın:




A) $2\sqrt{2}$ B) $\sqrt{6}$ C) $4\sqrt{2}$
D) $3\sqrt{2}$ E) 8

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

TimeBirlikTeam1

11. $11x^5y^{n+7}z^5$ birhədlisinin qüvvəti 33 olarsa, *n*-i tapın.
A) 12 B) 16 C) 13
D) 19 E) 17

12. İki paralel düz xətti üçüncü düz xətlə kəsdikdə alınan daxili birtərəfli bucaqlar 2 və 3 ədədləri ilə tərs mütənasibdir. Böyük bucağı tapın.
A) $115^0$ B) $120^0$ C) $108^0$
D) $144^0$ E) $135^0$

13. $\alpha$ və $\beta$ bucaqları uyğun tərəfləri perpendikulyar olan bucaqlardır. $2\alpha+\beta=210^0$ olarsa, $\alpha$ bucağının ən böyük qiymətini tapın.
A) $80^0$ B) $70^0$ C) $95^0$
D) $90^0$ E) $85^0$

14. $a^2-3ab+2b^2$ çoxhədlisinin vuruqlarından biri aşağıdakılardan hansıdır?
A) *a*–2*b* B) 2*a*–*b* C) *a*+3*b*
D) *a*+*b* E) *a*+2*b*

15. Düzbucaqlı üçbucağın iti bucaq təpələrindən çəkilən medianlarının uzunluqları 12 sm və 9sm-dir. Onun hipotenuzunu tapın.
A) $3\sqrt{10}$ B) $6\sqrt{5}$ C)14
D) 7,5 E) $7\sqrt{5}$

16. $(3x^3-5x+5)^4(4x^2+2x-5)^{10}$ çoxhədlisinin əmsalları cəmini tapın.
A) 16 B) 28 C) 49 D) 65 E) 81

17. Sadələşdirin: $\frac{23}{36}+\frac{2323}{3636}+\frac{232323}{363636}$
A) $\frac{46}{9}$ B) $\frac{23}{18}$ C) $\frac{23}{36}$
D) $\frac{69}{12}$ E) $\frac{23}{12}$

18. $a+b=4$ və $a\cdot b=-3$ olarsa, $a^3+b^3$ ifadəsinin qiymətini tapın.
A) 64 B) 80 C) 96
D) 100 E) 112

19. ABC üçbucağının medianlarının kəsişmə nöqtəsindən BC tərəfinə çəkilən paralel düz xətt onun AB və AC tərəflərini K və L nöqtələrində kəsir. KL=12 sm, AB+BC=27 sm olarsa, $P_{AKL}$-i tapın?
A) 22 B) 21 C) 32
D) 30 E) 33

20. $a$-nın hansı qiymətində $\frac{x^3-3x^2-ax+1}{x-2}$ kəsri ixtisar olunandır?
A) 3 B) -1,5 C) 2,5
D) -1 E) 2

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTeam1

21. $ax = by = cz = 28$ və $\frac{1}{x} + \frac{1}{y} + \frac{1}{z} = \frac{1}{7}$ olarsa,

$a + b + c$ cəmini tapın.

A) 7 B) 14 C) 21
D) 4 E) 12

22. Sinifdə qızların orta yaşı 12, oğlanların orta yaşı isə 16-dır. Oğlanlar sinfin $\frac{1}{4}$ hissəsi olarsa, sinifdəki şagirdlərin orta yaşı neçədir?

A) 15 B) 14 C) 13
D) 16 E) 17

**Açıq tipli test tapşırıqları:**

23. $n(A \cap B) = 4$ , $3n(A \backslash B) = 5n(B \backslash A)$
$n(A \cup B) = 36$ olarsa, $n(A)$ -nı tapın.

24. $\Delta$ABC –də $\angle BAC > 90^0$. BC-nin ala biləcəyi ən kiçik tam qiyməti tapın.




25. Satıcı məhsulun satışından 40% qazanc götürmək istəyir. O, məhsulun $\frac{1}{3}$ hissəsini 50 % qazancla satmışdır. Hədəfinə çatmaq üçün qalan məhsulu neçə %-lə satmalıdır?

26. $a$ natural ədədinin 17-yə bölünməsindən alınan natamam qismət $m$ qalıq isə $m^2$-na bərabərdir. $a$-nın ən böyük qiymətini tapın.

27. Uyğunluğu müəyyən edin.

1. $(a-1)x^2 + 3x - 7$
2. $(a+2)x^2 - 5x + 2$
3. $(|a| + 3)x^2 + x$

a. yalnız $a > -2$ olduqda ən böyük qiyməti var.
b. yalnız $a < 1$ olduqda ən kiçik qiyməti var.
c. $a$-nın istənilən qiymətində ən kiçik qiyməti var.
d. $a$=1 olduqda nə ən kiçik, nə də ən böyük qiyməti var.
e. $a$= –2 olduqda nə ən kiçik, nə də ən böyük qiyməti var.

***Situasiyanı diqqətlə oxuyun və burada verilmiş məlumatlardan istifadə edərək 28-30 saylı tapşırıqları cavablandırın.***

30 tələbə öz universitetlərinin üçbucaq şəkilli parkının ətrafına bərabər məsafədə ağaclar basdırmalı idilər. Bir ağacın qiyməti 10 manatdır.

28. Parkın tərəflərinin uzunluqları 36 m, 48 m və 60 m olarsa, tələbələr ən azı neçə manat pul xərcləyəcəklər ?

29. Tələbələrdən 12-si qız 18-i oğlandır.Qızlar oğlanlardan neçə faiz az, oğlanlar qızlardan neçə faiz çoxdur?

30. Parkın iki tərəfinin uzunluğu 36 m və 48 m olarsa, üçüncü tərəfin ala biləcəyi ən böyük və ən kiçik tam qiymətlərinin cəmini tapın (metrlə).

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTeam1

## Coğrafiya

31. Sxemə əsasən anlayışı müəyyən edin.




A) kartoqrafik generalizasiya
B) kartoqrafik proyeksiya
C) kartoqrafik şəbəkə
D) kartometrik təhlil
E) kartoqrafik modelləşdirmə

32. Xəritədə iki məntəqə arasındakı yolun uzunluğu 15 sm – dir. Xəritənin xətti miqyasına əsasən bu yolun həqiqi uzunluğunu hesablayın.




A) 30,5 km B) 1200 km C) 600 km
D) 300 km E) 1,5 km

33. Filadelfiya ($40^0$ şm.e. $75^0$ q.u.) ilə Bakı ($40^0$ şm.e. $50^0$ ş.u.) şəhərləri arasında müvafiq olaraq hər iki istiqamətdə uçan təyyarələrin hərəkət etdikləri azimutları və şəhərlər arasındakı məsafəni müəyyən edin.
A) 315° və 135° ; 2775 km
B) 270° və 360° ; 2135 km
C) 180° və 0° ; 13875 km
D) 225° və 45° ; 8880 km
E) 90° və 270° ; 10675 km

34. Uyğunluğu müəyyən edin.
a- İnsanın yaratdığı obyektlər
b- Təbii obyektlər




A) a- 1,3,5,7 ; b- 2,4,6,8
B) a- 2,5,6,7 ; b- 1,3,4,8
C) a- 1,2,3,7 ; b- 4,5,6,8
D) a- 5,6,7,8 ; b- 1,2,3,4
E) a- 1,4,6,8 ; b- 2,3,5,7

35. Azərbaycanın 1: 2 400 000 miqyaslı "Kənd təsərrüfatı" xəritəsi məzmununa və miqyasına görə hansı qrupa aiddir, xəritədə hansı təsvir üsulundan istifadə olunub ?
A) Tematik; kiçik miqyaslı; keyfiyyət fonu
B) Tematik; orta miqyaslı; kartoqram
C) Tematik; kiçik miqyaslı; areal
D) Ümumcoğrafi; böyük miqyaslı; izoxətlər
E) Ümumcoğrafi; orta miqyaslı; nöqtələr

36. A məntəqəsindən əvvəl $180^0$ azimutla 2220 km , sonra $90^0$ azimutla 5124 km gedən müşahidəçinin çatdığı məntəqənin coğrafi koordinatlarını müəyyən edin.




A) $40^0$ c.e. $0^0$ u. B) $40^0$ şm.e. $120^0$ ş.u.
C) $20^0$ şm.e. $106^0$ ş.u. D) $40^0$ şm.e. $20^0$ ş.u.
E) $80^0$ şm.e. $14^0$ ş.u.

37. Dağın ətəyindən keçən horizontalın dəniz sahilində yerləşdiyini nəzərə alaraq, A nöqtəsi ilə zirvə arasındakı hündürlük fərqini müəyyən edin.




A) 1120 m B) 720 m C) 1220 m
D) 920 m E) 250 m

38. O, Zambezi çayını, Nyasa gölünü tədqiq etmiş, Viktoriya şəlaləsini kəşf etmişdir:
A) D. Livinqston B) A. Humboldt
C) F. Magellan D) C. Kuk
E) A. Vespuççi

39. Əvvəlcə $45^0$ , sonra isə $315^0$ azimutla eyni məsafə qət edən ekspedisiya üzvləri başlanğıc məntəqəyə hansı azimut və istiqamətlə qayıtmalıdır?
A) 0°, şimal B) 135° , cənub-şərq
C) 180° , cənub D) 270°, qərb
E) 225°, cənub-qərb

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

40. Doğru olan ifadələri müəyyən edin.
1. Ekvator çevrəsinin uzunluğu 40076 km – dir.
2. Yerin səthinin ümümi sahəsi 149 mln. $km^2$ –dir.
3. Yerin xəyali oxunun Yer səthi ilə kəsişmə nöqtələri qütb adlanır.
4. Yer səthindən keçməklə qütbləri birləşdirən ən qısa xətlərin uzunluğu 20000 km-dir.
5. Yerin kürəliyini praktik (əyani) olaraq Aristotel sübuta yetirmişdir.
6. Yerin qütb radiusunun uzunluğu 12756 km-dir.
A) 1, 3, 4 B) 3, 4, 6 C) 2, 4, 5
D) 1, 2, 5 E) 2, 3, 4

41. Topoqrafik planda B və C nöqtələrinin hündürlük fərqi 75 m olarsa, A nöqtəsinin hündürlüyünü təyin edin.




A) 50 m B) 15 m C) 100 m
D) 125 m E) 75 m

42. Verilən əlamətlərə əsasən planeti müəyyən edin.
- *Günəşdən məsafəsi 1,52 AV-dır*
- *Qonşu planetlə arasında asteroid qurşağı yerləşir*
- *Bərk maddələrdən və metallardan ibarətdir*
A) Mars B) Yupiter C) Venera
D) Uran E) Yer

43. Uyğunluğu müəyyən edin.




a. Biocoğrafiya
b. Ərazi (landşaft) planlaşdırılması
c. Yerşünaslıq
d. Coğrafi informasiya sistemləri
e. Turizm coğrafiyası
f. Tibbi coğrafiya
A) 1-ac; 2-ef; 3-bd B) 1-ae; 2-bc; 3-df
C) 1-be; 2-ad; 3-cf D) 1-bf; 2-de; 3-ac
E) 1-af; 2-bd; 3-ce

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

44. Uzunluğu 32 km olan **Zəngəzur dəhlizi** xəritədə 6,4 sm-ə bərabərdir. Bu xəritədə sahəsi 32 $sm^2$ olan Qubadlı rayonunun həqiqi sahəsini hesablayın.
A) 160 $km^2$ B) 320 $km^2$ C) 480 $km^2$
D) 460 $km^2$ E) 800 $km^2$

45. Miqyası 1: 30 000 000 olan xəritədə A və B məntəqələri arasında qalan məsafə 13 sm-dir. Məntəqələr arasındakı məsafə neçə km təhrif olunmuşdur ($1^0$ meridian qövsü = 111,1 km)?




A) 400 km B) 14,8 km C) 544 km
D) 0 km E) 390 km

46. Coğrafi koordinatları $26^0$ şm.e. və $42^0$ ş.u. olan məntəqə hansı sahədə yerləşir?




A) II və IV B) yalnız I C) yalnız III
D) I və II E) III və IV

47. Yerə ən yaxın səma cismi hansıdır?
A) Günəş B) Venera C) Mars
D) Ay E) Qütb ulduzu

48. Fiziki xəritələrdə eyni dərinliyə malik olan nöqtələri birləşdirən əyri xətlər adlanır :
A) izobat B) izobar C) izoseyst
D) izohips E) izoterm

49. Qərb istiqamətində Asiyaya - Hindistana dəniz yolunun axtarışı coğrafiya elminin hansı inkişaf mərhələsində baş vermişdir?
A) Qədim dövrdə
B) Müasir dövrdə
C) Tədqiqatlar dövründə
D) Böyük coğrafi kəşflər dövründə
E) Orta əsrlər dövründə

50. *A* nöqtəsinin *B*-dən 1,5 dəfə çox hündürlüyə malik olduğu sxemi müəyyən edin (Nəzərə alın ki, kəsmə yüksəklik 5 m-dir) .




51. Müasir informasiya texnologiyaları vasitəsilə məlumatların toplanması və rəqəmsal xəritələrin tərtib edilməsi metodu:
A) Coğrafi informasiya sistemləri
B) Müqayisə
C) Riyazi statistik
D) Kartoqrafik
E) Coğrafi modelləşdirmə

52. Uyğunluğu müəyyən edin.

| Coğrafiyanın sahələri | Öyrəndiyi obyekt |
|---|---|
| I. Rekreasiya coğrafiyası | 1. Ətraf mühitdə yaranan problemlər və onların həlli yolları |
| II. Şəhər və landşaft planlaşdırılması | 2. Suyun yayılması və xüsusiyyətləri |
| III. Ekoloji coğrafiya | 3. Yaşayış və təsərrüfat yerlərinin səmərəli qurulması |
| | 4. Siyasi xəritələr, inzibati ərazi bölgüsü, siyasi proseslər |
| | 5. Turizm ehtiyatları və istifadə yolları |

A) I-1, II-3, III-4
B) I-4, II-2, III-5
C) I-3, II-1, III-2
D) I-2, II-3, III-1
E) I-5, II-3, III-1

**Açıq tipli test tapşırıqları:**

53. Şəkildə göstərilmiş proyeksiyaya aid olan əlamətləri seçin.



1. Paralel və meridianlar düz bucaq altında kəsişən düz xətlərdir
2. Meridianlar bir nöqtədən şaxələnir
3. Antarktida materikinin xəritələri bu proyeksiyada tərtib edilir
4. Qütblər 0 təhrifli nöqtələrdir
5. Ekvatorialda yerləşən ölkələrin və dünyanın xəritələrinin tərtibində istifadə olunur
6. Ekvatordan qütblərə doğru sahə təhrifi artır

54. Planetləri orbitləri üzrə hərəkət sürətinin azalmasına görə sıralayın.
1. Yer 2. Merkuri
3. Saturn 4. Mars

55. Sürəti 850 km/saat olan təyyarə 8 saatdan sonra eniş etdi. Bu müddət ərzində təyyarənin getdiyi yol 1 : 27 200 000 miqyaslı xəritədə neçə sm-dir?

56. Konturlu şərti işarələrlə təsvir olunan obyektlər :
1. meşə 2. bulaq
3. metal körpü 4. Tarla
5. şose yolu 6. bataqlıq

57. Uyğunluğu müəyyən edin.
1. Vizual təhlil
2. Kartometrik təhlil
3. Qrafik təhlil
a. fiziki xəritələrdən ərazinin relyefi haqqında məlumatların əldə edilməsi
b. xəritədə baş və xüsusi miqyasa əsasən təhrifin müəyyən edilməsi
c. xəritədəki məlumatlar əsasında iqlim diaqramının qurulması
d. əhalinin yaş-cins tərkibinin təsvir edilməsi
e. xəritədə təsvir üsullarının müəyyən edilməsi

T.me/BinikTeam1

## *Situasiya*

***Sizə təqdim olunmuş situasıya mətninə əsasən sualları cavablandırın. Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.***

*Bofort dənizi sahilindən (70° şm.e 130° q.u) eyni meridian çevrəsi üzrə hərəkətə başlayan səyyah əvvəl 0° azimutla, sonra isə 180° azimutla ümumilikdə 7770 km məsafə qət etmişdir. Onun çatdığı məntəqəyə əsasən tapşırıqları yerinə yetirin.*

58. Səyyahın çatdığı məntəqənin koordinatlarını qeyd edin.

59. Cədvəldə qeyd edin.

| Məntəqənin adı | Sahilində yerləşdiyi su hövzəsi | Məntəqədən qütb ulduzunun görünmə bucağı |
|---|---|---|
| | | |

60. Məntəqənin yerləşdiyi paralel çevrəsinin uzunluğunu hesablayın.

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

## Tarix

61. I Nikolayın 1840-cı il inzibati - məhkəmə islahatı haqqında qanununa əsasən:
1. Sahibkar kəndilərinə öz pay torpaqlarını satın almaq hüququ verildi
2. Komendant idarə üsulu ləğv olundu
3. Xəzər vilayəti və Gürcüstan – İmeretiya quberniyası yarandı
4. Rusiyanın mərkəzi əyalətlərində təhkimçilik ləğv edildi
5. Rusiyada müvəqqəti mükəlləfiyyətliliyə son qoyuldu

A) 2, 3 B) 1, 4 C) 4, 5
D) 1, 2 E) 3, 5

62. Hadisə - Nəticə əlaqələrinin ***doğru*** göstərildiyi cavabı müəyyən edin:

| № | Hadisələr | Nəticələr |
|---|---|---|
| 1 | Ahşerinin İskit hökmdarı İşpakay ilə müttəfiq olması | Aşşurbanipalın məğlub edilməsi |
| 2 | Turukkilərin Assurlarla toqquşmada qalib gəlməsi | Kuti dövlət qurumunun süquta uğraması |
| 3 | Kuti hökmdarı Tirikanın hakimiyyətinin sona çatması | Kuti dövlət qurumunun süquta uğraması |
| 4 | Sirdakka şəhərində müqavilə imzalanması | Assuriyanın Urartunun işğal etdiyi Manna torpaqlarını geri qaytarması |
| 5 | Mannada Şuandahul və Durdukka şəhərlərində üsyan baş verməsi | II Sarqonun üsyançı şəhərləri darmadağın etməsi |

A) 1, 2 B) 4, 5 C) 2, 3
D) 1, 4 E) 3, 5

T.me/BilikTeam1

63. Eyler- Venn diaqramına əsasən uyğunluğu müəyyən edin:




a. E.ə VII əsrdə müstəqillik uğrunda xalq hərəkatı baş verdi
b. Selevki (Suriya) dövlətinin parçalanması nəticəsində meydana gəldi
c. Roma yürüşlərinə qarşı mübarizə aparmışdı
d. Roma ilə III əsrə qədər siyasi-iqtisadi əlaqələri davam etdirmişdi
e. Parfiya tərəfindən dövlətçiliyinə son qoyuldu
A) 1-e; 2-d;3-c
B) 1-a; 2-d;3-c,e
C) 1-a,b; 2-c;3-d
D) 1-e; 2-b;3-c
E) 1-b; 2-a;3-d,c

64. II Vaçenin Sasanilərə qarşı azadlıq hərəkatının nəticəsində:
1. Albaniyanın daxili müstəqilliyinə son qoyuldu
2. Albaniya Sasani mərzbanları tərəfindən idarə edilməyə başlandı
3. Albaniyada Arşaki sülaləsinin hakimiyyəti sona çatdı
4. Cənubi Qafqaz Roma və Sasani dövlətləri arasında nüfuz dairələrinə bölündü
A) 3,4 B) 1,3 C) 1,2
D) 2,4 E) 2,3

65. Uyğunluğu müəyyən edin:
1. I Tutmos
2. III Tutmos
3. II Ramzes
a. Hakimiyyət uğrunda mübarizələr nəticəsində ərazilərin bir qismini itirdi
b. Misirin cənubunda Nubiya tabe edildi
c. Fələstin və Suriyanı idarə etmək üçün canişinlər təyin etdi
d. Suriya uğrunda müharibədə qəti qələbə qazana bilmədi
A) 1-a; 2-b; 3-c
B) 1-c; 2-a; 3-b
C) 1-d; 2-b; 3-a,c
D) 1-b; 2-c; 3-d
E) 1-b; 2-d; 3-a

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

66. XIX əsrin 60-cı illəri üçün xarakterikdir:
A) Teleqraf xətlərinin istifadəyə verilməsi
B) Bakı şəhərində mərkəzləşdirilmiş telefon stansiyasının işə salınması
C) Kəndlilərdən hərbi verginin alınmağa başlanması
D) Bakıda ilk toxuculuq fabrikinin açılması
E) Gədəbəydə Qalakənd zavodunun inşası

67. III Dara və Çandraquptanın fəaliyyətlərinə aid ümumi cəhət:
A) Makedoniyaya qarşı mübarizə
B) Vahid dövlətin qurulması
C) Şimal-qərbi Hindistanın tabe edilməsi
D) Sin imperiyası ilə uzun sürən çəkişmələr
E) E.ə III minillikdə fəaliyyət göstərmələri

68. Uyğunluğu müəyyən edin:




A) 1-c; 2-c B) 1-b; 2-a,c C) 1-b,c; 2-a
D) 1-a,b; 2-a E) 1-a,b; 2-b

T.me/BilikTeam1

69. Xəritədə ştirxlənmiş erkən orta əsr feodal dövlətinə aid xüsusiyyətləri müəyyən edin:




1. Haşim ibn Suraka tərəfindən müstəqil idarə edilirdi
2. 859-cu ildə iqamətgahı Gəncəyə köçürüldü
3. Məzyədi sülaləsi tərəfindən idarə olunurdu
4. 1032-1033-cü ildə Slavyan, alan və sərir tayfaları tərəfindən paytaxtı qarət edildi

A) 3, 4 B) 1, 2 C) 2, 3
D) 1, 4 E) 2, 4

70. Uyğunluğu müəyyən edin:




A) Dərbənd səddi
B) Ağoğlan məbədi
C) Lerikdə Oğlanqala
D) Çıraqqala (Şabran)
E) Amaras monastırı

71. Göstərilənlər zəifləməsinə səbəb olmuşdu:
- *Qonşu türk xalqı olan peçeneqlərin hücumları*
- *Dövlətin ərazisində müxtəlif dinlərin yayılması*

A) Xəzər dövlətinin
B) Qərbi Hun dövlətinin
C) Qaraxanlı dövlətinin
D) Qəznəvi dövlətinin
E) Ağ Hun dövlətinin

72. Uyğunluğu müəyyən edin:




A) 1, 2 B) 3, 4 C) 1, 4
D) 2, 5 E) 3, 5

73. Qədim Yunanıstanın e.ə VIII əsr və Şumerlərin e.ə III minillik tarixi üçün ümumi cəhətdir:
A) Şəhər – dövlətlərin yaranması
B) Dorilərin yürüşü
C) Torpağa görə bütün borcların ləğvi
D) Xalq yığıncağının ali hakimiyyət orqanına çevrilməsi
E) Roma tərəfindən işğal edilməsi

74. Xəritədə ulduz ilə işarələnmiş ərazinin tarixi üçün xarakterikdir:




1. E.ə IV minillikdə təkər ixtira edilməsi
2. Hökmdarların məzarına ehramların inşa edilməsi
3. Ən qədim müqəddəs qanunlar toplusunun “Veda” adlanması
4. Dünya tarixinin ilk imperiyasının yaranması.
5. Hetlər ilə Kadeş müqaviləsinin imzalanması

A) 3, 5 B) 1, 2 C) 2, 3
D) 1, 4 E) 2, 5

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

75. Qədim Romanın respublika dövründə baş verməyib:
A) Plebeylərin xalq tribunu seçmək hüququ qazanması
B) Makedoniya və Yunanıstanın işğalı
C) Vandalların Romanı talan etməsi
D) 12 lövhə qanunlarının qəbul edilməsi
E) Karfagenin Roma əyalətinə çevrilməsi

76. **Mətn-1**
*Altay dağlarının ətəklərində məskunlaşan Aşina nəsli Avar dövlətinə tabe olub, dəmirçiliklə məşğul olurdu. Bu nəslin başçısı avarlara qarşı üsyan qaldıraraq yeni dövlət qurdu.*
**Mətn-2**
*Çindəki Tan sülaləsini himayə edərək, onları qiyamçı çıxışlarından və qonşuluqdakı tibetlilərin hücumlarından qoruyurdular. Qarşılığında Çindən ipəklə xərac alırdılar.*
I Mətndə bəhs edilən dövlətdən fərqli olaraq, II mətndə bəhs edilən dövlət üçün xarakterikdir:
1. Ötükənin paytaxt seçilməsi
2. Çinin asılı hala salınması
3. Hökmdarın maniçiliyi təbliğ etməsi
4. IX əsrdə süquta uğraması
A) 1, 2 B) 3, 4 C) 2, 3
D) 2, 4 E) 1, 3

77. Qərb Hunlarına aid ***doğru*** cavabı müəyyən edin:
A) İlk başçısı Tanrı xan hesab edilir
B) Attilanın oğlu Ağ Hunlar ilə döyüşdə həlak oldu
C) Dini pərakəndəlik dövlətin süqutuna səbəb oldu
D) Balamir Katalaun düzənliyində Qərbi Roma ilə döyüşdü
E) Kiyev knyazının yürüşü nəticəsində süquta uğradı

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

78. Aşağıdakı xüsusiyyətləri müasir xəritədə rəqəm ilə işarələnmiş dövlətlərə uyğunlaşdırın:




a. 532-ci ildə Sasani dövləti ilə sülh bağladı
b. Verden müqaviləsi nəticəsində parçalandı
c. VI əsrdə slavyanlar imperiya ərazisində məskunlaşdı
d. Roma imperiyasından sonra ilk dəfə Qərbi Avropanı yenidən birləşdirdi
A) 1-a; 2-b,d
B) 1-b; 2-a
C) 1-a,c; 2-d
D) 1-b,d; 2-a,c
E) 1-a; 2-c

79. Cavanşir Əməvilər sülaləsinin hakimiyyətə gəlməsindən sonra:
A) Albaniya dövlətinə başçılıq etməyə başladı
B) Bizans imperatoru II Konstantin ilə görüşdü
C) Bizans ilə uzaqlaşaraq Xilafətlə münasibətləri nizama saldı
D) Sasani şahı III Yəzdigərd tərəfindən mükafatlandırıldı
E) Hakimiyyəti qardaşı Varaz Tiridata təhvil verdi

80. XIX əsrin 30-cu illərində çarizmə qarşı baş verən üsyanların səbəblərindən ***deyil:***
A) Komendant idarə üsulunun tətbiqi
B) İltizam sisteminin mövcud olması
C) Vergi və mükəlləfiyyətlərin artırılması
D) Köçürmə siyasəti
E) Qaçaqçılıq hərəkatının geniş yayılması

81. XX əsrin əvvəllərində neft sənayesindən fərqli olaraq Mis sənayesində:
A) Ağır əl əməyini elektrik enerjisi əvəz etmişdi
B) Köhnə buxar mühərriklərindən daha çox istifadə olunurdu
C) 1900-1903-cü il iqtisadi böhranı mənfi təsir etməmişdi
D) Üstünlük milli sahibkarların əlində idi
E) Qabaqcıl texnologiyadan çox zəif istifadə edilirdi

82. Qaraxanlı dövləti XI yüzilliyin 40-cı illərində:
A) Səlcuqlar və qurluların hakimiyyəti altına düşdü
B) İki yerə parçalandı
C) İslam dinini dövlət dini elan etdi
D) Hindistanın şimal-qərb torpaqlarını ələ keçirdi
E) Dəndənəkan döyüşündə qalib gəldi

**Açıq tipli test tapşırıqları:**

83. Müsəlmanların ilk islam dövlətinin əsasını qoyduqdan sonrakı tarixi üçün xarakterikdir:
1. Bədr döyüşü
2. Məhəmməd peyğəmbərin Yəsribə köçməsi
3. Vestqotların məğlub edilməsi
4. Puatye döyüşündə məğlubiyyət

84. Erkən Tunc dövrünə uyğun gəlir:
1. Bir neçə qəbiləni birləşdirən tayfalar yarandı
2. Kür-Araz mədəniyyəti kimi də səciyyəvidir
3. Köçmə yaylaq maldarlığı yarandı
4. Boyalı qablar mədəniyyəti formalaşdı
5. İlkin şəhər yaşayış məskənləri yarandı

85. Xronoloji ardıcıllığı müəyyən edin:
1. Eldənizin gürcü qoşunlarını məğlub etməsi
2. Xorasan, Rey və Həmədanın Xarəzmşah Təkəş tərəfindən tutulması
3. Cəlaləddinin Təbrizi tutması
4. Şirvanşahın hərbi qüvvələrinin III Georgiyə kömək etməsi

86. Səbəb – Nəticə əlaqələrinin **doğru** göstərildiyi cavabı müəyyən edin:

| № | Səbəb | Nəticə |
|---|---|---|
| 1 | Respublika dövründə hakimiyyətin bir neçə varlı patrisi və plebey ailələrində olması | Roma Respublikasının demokratik dövlətə çevrilə bilməməsi |
| 2 | E.ə III əsrdə Romalıların bütün İtaliyanın işğalını başa çatdırması | Respublika quruluşunun yaranması |
| 3 | Respublikanı monarxiya ilə əvəz etmək istəyi | Qay Yuli Sezarın Senatda öldürülməsi |
| 4 | Muzdlu Roma ordusunun sərkərdələrə sədaqət andı içməsi | E.ə I əsrdə sərkərdələr arasında vətəndaş müharibələrinin başlanması |
| 5 | Artıq torpaqların alınmağa və yoxsullara paylamaq qanununun qəbul edilməsi | Tiberinin xalq tribunu təyin edilməsi |

87. Uyğunluğu müəyyən edin:
1. Qeyrət partiyası
2. Difai partiyası
3. Hümmət təşkilatı
a. Azərbaycanlı fəhlələr arasında siyasi iş aparmaq məqsədi daşıyırdı
b. İlk milli partiya idi
c. Əhməd bəy Ağayevin rəhbərliyi ilə yaradılmışdı
d. 1913-cü ildə yaradılmışdı

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/Biriktiream1

**Sizə təqdim olunmuş mənbə əsasında tapşırıqları tarixi biliklərinizə əsasən *Cavab vərəqində* cavablandırın.**

Baş nazir Eynüddövlə demokratik qüvvələrə qoşulmuş tacirləri, ruhaniləri və ümumiyyətlə əhalini qorxutmaq, onları inqilabi hərəkatdan uzaqlaşdırmaq məqsədilə qəndin bahalanmasını bəhanə edərək, tacirləri həbs etdirdi. Bu hadisə tacirlərin, alverçi və ruhanilərin həyəcanına səbəb oldu. Bütün bazar tətil etdi. Milli burjuaziya nümayəndələri, xırda burjuaziya və sənətkarlar minlərlə adam ruhanilərin evlərinə toplaşaraq hökumətə qarşı etiraz yığıncaqları təşkil etdilər. Bununla da inqilab başlanmış oldu. Etiraz yığıncaqlarının, ümumiyyətlə, inqilabın ilk dövründə çıxışların hazırlanmasında, hərəkatın idarə edilməsində İnqilab Komitəsinin, "Əncümən-məxfi"nin mühüm təşkilatçılıq rolu var idi.

88. Mənbədə bəhs olunan inqilab zamanı etirazçıların tələblərini tarixi biliklərinizə əsasən müəyyən edin.

89. Mənbədə bəhs olunan inqilabın başlama və bitmə tarixlərini müəyyən edin:

90. Mənbədə bəhs edilən hərəkat dövründə əncümanların xalq kütlələrinin xeyrinə həyata keçirdiyi islahatların azı ikisini müəyyən edərək yazın:

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

t.me/BirlikTeam1